| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 22.12.2014 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 426 |
| **ADI** | Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İxtisaslaşdırılmış çek investisiya fondları haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 25-12-2014, Nəşr nömrəsi: 283), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2014, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 1580) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 25.12.2014 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 090.110.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 13201412220426 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 24.12.2014 |

**Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İxtisaslaşdırılmış çek investisiya fondları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 1 may tarixli 350-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 579 nömrəli Fərmanı (Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (aprel-iyun 1997); Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 7, maddə 423; 2000, 12, maddə 844; 2005, 5, maddə 403; 2009, 3, maddə 163) ilə təsdiq edilmiş "İxtisaslaşdırılmış çek investisiya fondları haqqında Əsasnamə"nin 9-cu hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1. Çek investisiya fondu illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə hesabat dövrü başa çatdıqdan sonra növbəti il aprel ayının 30-dan gec olmayaraq Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə və təsisçiyə (təsisçilərə) təqdim etməli, habelə dövri mətbu nəşrdə və fondun internet səhifəsində (varsa) dərc etdirməlidir.".

2. 2-ci bəndin birinci abzası, birinci və ikinci yarımbəndləri aşağıdakı redaksiyada verilsin:

"2. İllik maliyyə hesabatları "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tərtib edilməli, uçot siyasəti və izahlı qeydlərdə isə əlavə olaraq aşağıdakılar əks etdirilməlidir:

- fondun investisiyalarının siyahısı və onun açıqlaması (səhmlərin sayı, növü və hesabat tarixinə bazar qiyməti);
- hesabat dövrü ərzində ödənilmiş dividendlər;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 dekabr 2014-cü il
426